# Seçkilərin favoriti İlham Əliyev olacaq

"Növbədənkənar prezident seçkilərinin keçirilməsi ilə bağlı sərəncam xalqımız tərəfindən böyük sevinc və məmnuniyyət hissi ilə qarşılanır. Bu seçkilər dövlətçilik tariximizin əlamətdar dövrünə təsadüf edir. Müstəqillik tariximizdə ərazi bütövlüyü və suverenliyi tam təmin edilmiş Azərbaycanın ilk dəfə bütün bölgələrində prezident seçkiləri keçiriləcək. Hər yerdə seçki məntəqələri qurulacaq, Azərbaycan xalqı öz siyasi iradəsini sərbəst və rahat şəkildə ifadə edəcək".



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev deyib. Komitə sədri bildirib ki, seçkilərin növbədənkənar və ya vaxtında keçirilməsinin heç bir fərqi yoxdur. Dünyada belə hallara mütəmadi olaraq rast gəlinir. Əsas odur ki, xalq fikrini, öz arzu və istəyini, mövqeyini rahat şəkildə ifadə edə bilsin.

Musa Quliyev söyləyib ki, budəfəki prezident seçkiləri Vətən müharibəsində zəfər qazandıqdan sonra keçirdiyimiz ilk seçkidir. Xatırlayırsınızsa, bundan əvvəlki prezident və parlament seçkiləri də növbədənkənar keçirilmişdi. Çünki biz həmin vaxt da tarixi hadisələrin astanasında idik. Məhz həmin seçkilərdən sonra Azərbaycan 44 günlük Vətən müharibəsində torpaqlarını işğaldan azad etdi və seçki dövründə ərazi bütövlüyünü və suverenliyini tam təmin etdi. Bu mənada, fevralın 7-nə təyin olunmuş seçkini zəfər seçkisi də adlandırmaq olar.

Komitə sədrinin dediyinə görə, Azərbaycan xalqı öz liderini hələ uzun müddət dövlətin başında görmək istəyir. Şübhəsiz ki, bu, xalqın ürəyindən gələn seçimdir. "Seçki üçün bütün prosedurlar hazırdır. Azərbaycanda fəaliyyət göstərən siyasi partiyaların hər biri üçün bərabər imkanlar yaradılıb. Partiyaların seçki dövründə təbliğat və təşviqatla məşğul olmalarına və seçki kampaniyaları keçirmələrinə heç bir əngəl yoxdur. Azərbaycanda bu dəfə də demokratik, hüquqi və sivil seçkilərin keçirildiyinin şahidi olacağıq", - deyə müsahibim bildirib.

Musa Quliyev vurğulayıb ki, budəfəki prezident seçkilərinin favoriti yenə Yeni Azərbaycan Partiyasının lideri İlham Əliyev olacaq: "Prezident İlham Əliyevin xalq arasında, eləcə də beynəlxalq ictimaiyyətdə reytinqi olduqca yüksəkdir. Bunun əsas səbəbi həm də 250 ildən artıq müddətdə ilk dəfə olaraq məhz İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın öz ərazi bütövlüyünü təmin etməsi və itirilmiş torpaqlarımızın geri qaytarılmasıdı. Eyni zamanda Azərbaycanın Prezident İlham Əliyevin hakimiyyəti illərində dünyanın taleyini həll edə bilən ölkələr sırasına daxil olması da nəzərə alınmalıdır. Azərbaycanın qlobal təşəbbüslərinin ardı-arası kəsilmir. Təsadüfi deyil ki, Qoşulmama Hərəkatına rəhbərlik etdiyi dövrdə bu qurum dünyada ən nüfuzlu təşkilata çevrilib. Bu, İlham Əliyevin beynəlxalq ictimaiyyət qarşısında ən böyük xidmətlərindən biridir. Həmçinin türk dünyasının birləşdirilməsi, yenidən təşkil olunması da Prezident İlham Əliyevin mühüm xidmətlərinin bəhrəsidir".

Komitə sədri əlavə edib ki, vətəndaşlarımızın sosial müdafiəsinin gücləndirilməsi, yeni iş yerlərinin açılması, rifah halının yaxşılaşdırılması, asayişin, əmin-amanlığın, milli təhlükəsizliyimizin qorunması və digər sahələrdə də dövlət başçısının böyük zəhməti və xidmətləri var. Seçkilərin vaxtından əvvəl keçirilməsi də Prezidentin gələcək dövr üçün qarşıya qoyduğu məsələlərin daha tez və daha uğurlu həllinə hesablanıb. İnanırıq ki, Azərbaycan xalqı həmişə olduğu kimi, bu seçkilərdə də fəal iştirak edəcək və öz liderini dəstəkləyəcək.

Azərbaycan.- 2023.- 9 dekabr, № 269.- S.7.